# İnsan amili, iqtisadi inkişaf və sosial problemlərin uğurlu həlli

## *Söhbət Füzuli rayonunda bu sahədə toplanmış müsbət təcrübədən gedir*

❐ ***Son illərin adətidir: Füzuli rayonuna, Horadiz şəhərinə qədəm basanda mütləq dairəvi yolda, Bayraq meydanının yaxınlığında maşından düşürəm. Vaxt macal verdi-verməz, şəhərin bu əzəmətli guşəsindən başlayaraq gəzməli-görməli yerlərinə baş çəkirəm. Yalnız bundan sonra səfərin mövzusu ilə bağlı ünvana gedirəm. Özü də bu, təkcə onunla bağlı deyil ki, güllər-çiçəklər, yaşıllıqlar şəhərinə çevrilmiş Horadizin abad və yaraşıqlı küçə və prospektlərindən, yeni tikilmiş müxtəlif təyinatlı binalarının, bağ və parklarının, bulaq və fəvvarələrinin yanından, necə deyərlər, asta keçmək, ayaq saxlamamaq mümkün deyil. Bir səbəb də var: hər dəfə gələndə mütləq bir yeniliklə rastlaşırsan.***



Bu dəfə də belə oldu. Əvvəlcə Bayraq meydanına qalxdım. Qəlbimdən minnətdarlıq duyğuları keçdi. Nə yaxşı ki, Bayraq meydanı məhz burada salınıb. Külli Qarabağ övuc içi kimi görünür. Adam qollarını açıb bu bərəkətli torpağı qucaqlamaq istəyir. 10 hektar sahəni əhatə edən və çılpaq yamacda salınmış Bayraq meydanı indi öz görkəmini tamamilə dəyişib. Yüzlərlə müxtəlif ağac və gül kolu, işıqlandırma sistemi, istirahət güşələri indi buranı yaşıllıqlar qoynunda bənzərsiz bir məkana çevirib.

Heydər Əliyev prospekti boyunca yaradılmış gözəlliklərə, son illər tikilmiş müxtəlif təyinatlı binalara, park və xiyabanlara baxıram-- Heydər Əliyev parkı, Heydər Əliyev mərkəzi, Mədəniyyət evi, YAP rayon təşkilatının inzibati binası, Şahmat məktəbi, 2 nömrəli orta məktəb… İlk anlarda adama elə gəlir ki, cəbhə bölgəsində, düşmənin, necə deyərlər, ikiaddımlığında yox, dünyanın ən əmin-aman, müasir və yaraşıqlı bir şəhərindəsən. Bu məqamda Prezident İlham Əliyevin Füzuliyə səfəri zamanı dediyi aşağıdakı sözləri xatırlayıram: "Prezident kimi dördüncü dəfədir ki, Füzuliyə səfər edirəm. Son səfərimdən sonra keçən dövr, doğrudan da, Füzuli rayonu üçün çox böyük uğurlarla zəngin olan bir dövr olmuşdur. Qısa müddət ərzində böyük işlər görülmüş, parklar salınmış, yeni sənaye müəssisələri yaradılmışdır. Abadlıq işləri görülür və bu məni çox sevindirir. Çünki Füzuli rayonu ölkəmiz üçün çox böyük əhəmiyyətə malik olan bir diyardır".

Gənclər prospekti də təzə salınıb. Füzuli Rayon İcra Hakimiyyətinin, Polis və Təhsil şöbələrinin inzibati binaları, soyuducu anbar kompleksini, Bouling zalını, Qəhrəmanlar parkını, Statistika və Kənd Təsərrüfatı idarələri üçün binaları, ölkə Prezidentinin sərəncamı ilə 11 kəndi birləşdirən avtomobil yolları da əlavə etsək, burada aparılan geniş abadlıq-quruculuq işlərinin miqyası barədə yetərli təsəvvür yaranar. Onu da deyək ki, son illərdə şəhərdə 100 minə yaxın müxtəlif ağac və gül kolu əkilmişdir. 23 məktəb binası tikilib istifadəyə verilib, 12 məktəb binası isə əsaslı təmir olunub. Bu da sevindiricidir ki, hazırda rayonun bütün qəsəbə və kəndlərində təbii qaz alovlanır.

Yeri gəlmişkən, burada Tarix-diyarşünaslıq muzeyi, uşaq bağçası... bu prospektdə yerləşir. Ümumiyyətlə, son illər şəhər bütün istiqamətlərə doğru xeyli genişlənib, yeni binalar tikilib, yollar, səkilər çəkilib, yaşıllıq zolaqları salınıb, infrastruktur layihələri həyata keçirilib.







Biz o qədər də tam olmayan bu siyahıya Horadiz şəhərində işğal zamanı tamamilə yandırılmış və dağıdılmış 5 küçənin yenidən qurulmasını, su elektrik stansiyasının, tikintisi yenicə başa çatdırılmış müxtəlif təyinatlı obyektləri də yada salaq: Avtovağzal kompleksi, Rəsm qalereyası, 10 hektar sahədə istixana, 400 ailəlik yeni qəsəbə... Qayıdış qəsəbələrini birləşdirən 23 kilometr yol da hazırdır. Gördüklərimizdən, müşahidə etdiklərimizdən doğan bax belə xoş təəssüratla, sabaha olan dərin inam və ümidlə Füzuli Rayon İcra Hakimiyyətinin şəhərə yaraşıq verən binasına gəlirəm.

**Rayon icra hakimiyyətinin başçısı Alı Alıyevi çoxdan tanıyıram.** Uzun illər müxtəlif rəhbər vəzifələrdə çalışıb. Maraqlı və zəngin həyat yolu keçib. Təcrübəli, gerçəkliyə praqmatik yanaşan adamdır. Söhbət, əlbəttə, təkcə icra başçılığından getmir. Bir insan və ziyalı olaraq onun zəngin daxili aləmini, intellekt və dünyagörüşünü, insanlara səmimi və qayğıkeş münasibətini nəzərdə tuturam. Həmişə olduğu kimi, bu dəfə də rayon rəhbəri bizi xoş əhvalla qarşıladı, məmnunluqla danışdı:

– İnkişaf və yüksəliş, hər şeydən əvvəl, ölkə Prezidenti İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına göstərdiyi gündəlik diqqət və qayğının, bu istiqamətdə imzaladığı fərman və sərəncamların, qəbul edilmiş dövlət proqramlarının uğurla yerinə yetirilməsinin nəticəsidir. Ölkə rəhbərinin ayrı-ayrı regionlara tarixi səfərlərini, açılış və təməlqoyma mərasimlərində iştirakını, ağsaqqallarla, ziyalılarla, gənclərlə keçirdiyi görüşlərini, verdiyi məsləhət və tövsiyyələrini yada salmaq kifayətdir. Təkcə son 5 ildə möhtərəm Prezident 2 dəfə Füzulidə olmuşdur. Ölkə rəhbəri hazırda şəhərə xüsusi yaraşıq verən bir sıra obyetlərin açılışında iştirak etmiş, rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür. Həmin tarixi səfərlər, keçirilmiş görüş və söhbətlər bu gün də füzulililərin qəlbində əziz bir xatirə kimi yaşamaqdadır.

Burada vacib olan daha bir cəhəti qeyd etmək lazımdır. Bu da rayon icra hakimiyyətinin, onun yerli strukturlarının iqtisadi, sosial və mədəni məsələlərin həllinə kompleks münasibətidir; təşkilat-idarəetmə məsələlərində, iş uslub və metodlarında daha çox elmi münasibətə əsaslanmasıdır; adamların vacib sosial məsələlərinin diqqət mərkəzində saxlanmasıdır. Təkcə cari ilin ötən 9 ayı ərzində əldə edilmiş uğurların, fakt, rəqəm və göstəricilərin təhlili belə düşünməyə əsas verir.

İlin əvvəlindən rayonun makroiqtisadi göstəriciləri dinamik inkişaf edib. Ayrı-ayrı sahələr üzrə istehsalın və xidmətin həcmi artıb, əhalinin həyat səviyyəsi yüksəlib. Büdcənin yerli gəlirləri 4 milyon 556 min manata qarşı 4 milyon 599 min 807 manat, yaxud 101 faiz icra olunub. Ümumi məhsul buraxılışının həcmi 162 milyon 100,8 min manat olub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 38,5 faiz çoxdur. Bunun 8 milyon 866,4 min manatı sənaye müəssisələrinin, 74 milyon 325,5 min manatı kənd təsərrüfatının, 42 milyon 571,6 min manatı tikinti-quraşdırma, 881,3 min manatı nəqliyyat, 174,8 min manatı informasiya və rabitə, 30 milyon 326,2 min manatı isə pərakəndə ticarət dövriyyəsinin payına düşür. Göründüyü kimi, ümumi məhsul buraxılışının əsasını sənaye, kənd təsərrüfatı və investisiyalar təşkil edir.

**Başçının bu ümumi məlumatından sonra onun təqdim etdiyi statistik göstəricilər toplusuna ətraflı nəzər saldıq.** Məlum oldu ki, rayon əhalisinin sayı bu il 1,8 faiz artaraq 128 min nəfər olub. Hazırda məşğul adamların sayı 56857 nəfərə çatıb ki, bu da əhalinin 45,1 faizi deməkdir. Dövlət proqramına uyğun olaraq, yanvar-sentyabr aylarında rayonda 558 yeni iş yeri açılıb. Bunlardan 19-u yeni, 4-ü mövcud müəssisə və təşkilatlarda, 455-i isə fiziki şəxslər hesabına yaradılıb.

Regionların sosial iqtisadi inkişafına dair üçüncü dövlət proqramında nəzərdə tutulan tədbirlər bu il də uğurla yerinə yetirilir. Proqramda rayonda cins heyvandarlıq, üzümçülük, tərəvəzçilik, meyvəçilik, toxumçuluq, tingçilik sahələrinin inkişafı, iri taxılçılıq təsərrüfatlarının yaradılması, kənd təsərrüfatı istehsalının inkişafına xidmət edən infrastrukturun möhkəmləndirilməsi, əhalinin zəruri ehtiyaclarının ödənilməsi ilə bağlı bir sıra tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub. 9 ayda kənd təsərrüfatı məhsulları istehsalında yüksək nəticələr əldə edilib.

Artıq altıncı ildir ki, Füzuli taxıl istehsalına görə respublikanın 100 min tonçu rayonları sırasındadır və bu nəticə də son hədd hesab edilmir. Bu mövsümdə 35818 hektar sahənin məhsulu itkisiz biçilib, 121,1 min tondan artıq taxıl əldə edilib. Hər hektarın məhsuldarlığı 34 sentnerə yaxın olub. Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq rayonda bu il hər biri 1000 hektar sahəni əhatə edən 4 iri taxılçılıq təsərrüfatı yaradılıb. Onlarda istehsal olunacaq yüksək keyfiyyətli məhsul Dövlət Taxıl Fonduna tədarük olunacaq.

Rayonda ənənəvi təsərrüfat sahələrindən olan pambıqçılığın və baramaçılığın uzun fasilədən sonra bərpa edilməsi istiqamətində bu il inamlı addımlar atılıb. Pambıq tarlalarında bol məhsul yetişdirilib. Hazırda rayonda pambıq yığımına başlanılıb. Builki təcrübəyə əsaslanıb növbəti ildə 1500 hektarda pambıq əkilməsi nəzərdə tutulur. Bu il kümçülər 3 tondan artıq barama istehsal ediblər. Gələn il bu rəqəmin 30 tona çatdırılması planlaşdırılır.

Heyvandarlığın inkişaf etdirilməsi də diqqət mərkəzindədir. Hazırda rayonda 35124 baş iri mal, 141348 baş qoyun-quzu, 360000 baş ev quşları var. 9 ay ərzində rayonda 1865 ton ət, 17476,5 ton süd, 6185 ədəd yumurta, 163 ton yun istehsal edilib. Bunlar əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə xeyli çoxdur. İndiyədək 1703 ton kartof, 1380 ton şəkər çuğunduru, 6142 ton tərəvəz, 5456 ton bostan məhsulları, 290 ton üzüm, 94 ton günəbaxan, 1164 ton qarğıdalı toplanıb. Sevindirici haldır ki, əhalinin heyvandarlıq və bostan-tərəvəz məhsullarına olan tələbatı yerli istehsal hesabına ödənilir və respublika bazarına bir sıra məhsullar çıxarılır.

Sahibkarlığın inkişafına yaradılan şəraitin nəticəsidir ki, yüzlərlə şəxs özəl fəaliyyətlə məşğul olur, rayon iqtisadiyyatının möhkəmlənməsində yaxından iştirak edir. Onlarla insan rayonda kənd təsərrüfatı, kiçik emal müəssisələri yaradaraq məhsul bolluğu yaradır.

Dövlət proqramına uyğun olaraq, rayonun içməli və suvarma suyuna ehtiyac olan yaşayış məntəqələrində 72 ədəd artezian quyusu qazılması planlaşdırılıb. 2 il 9 ay ərzində 37 ədəd, 2016-cı ilin 9 ayında isə 12 ədəd artezian quyusu qazılaraq istifadəyə verilib. Bu il Alıxanlı, Kürdmahmudlu, Şükürbəyli, İkinci Mahmudlu və Kərimbəyli kəndlərində və İkinci Zobucuq qəsəbəsində 67 ədəd artezianın nasosu, 15 ədəd kaskad dəyişdirilib. İçməli su təchizatının yaxşılaşdırılması istiqamətində də əsaslı işlər görülüb. 9 ay ərzində Horadiz şəhərində, İkinci Mahmudlu, Böyük Bəhmənli, Aşağı Yağlıvənd, Kərimbəyli, Kürdmahmudlu, Şükürbəyli kəndlərində, Qayıdış və Zobucuq qəsəbələrində sıradan çıxmış xətlər, elektrik mühərrikləri təmir edilmiş, su verilişində nöqsanlar aradan qaldırılıb.

**Başçı daha sonra bildirdi ki,** Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, rayona təbii qaz çəkilişi tam başa çatıb. Füzuli respublikada 100 faiz qazlaşdırılmış rayonlardan biri, bəlkə də birincisidir. Rayonun 39 yaşayış məntəqəsinin hər birində əhali təbii qazdan istifadə edir. Əhali göstərdiyi diqqət və qayğıya görə ölkə başçısına minnətdarlığını bildirir. Prezidentin sərəncamı ilə 25 min nəfər əhalinin yaşadığı 8 məntəqəni birləşdirən 31,7 kilometrlik Əhmədbəyli-Alxanlı-Zobucuq, həmçinin Bala Bəhmənli-Araz Dilağarda-Araz Zərgər avtomobil yolları yenidən qurulub. Rayon ərazisində, ümumilikdə, 60 kilometrə yaxın yolların bərpası başa çatdırılıb. Hazırda 1-ci və 11-ci Qayıdış qəsəbələrini birləşdirən 23 kilometrdən artıq yolun tikintisi başa çatmaq üzrədir.

Dövlət proqramına uyğun olaraq, rayonda təhsil və səhiyyənin bazasının təzələnməsi də diqqət mərkəzindədir. Bütün yaşayış məntəqələrində ən müasir tələblərə cavab verən tədris müəssisələri tikilərək şagirdlərin istifadəsinə verilib. Prezident İlham Əliyevin Füzuliyə və füzulililərə göstərdiyi diqqət və qayğının nəticəsidir ki, respublikamızda ən müasir standartlara cavab verən ikinci gimnaziya cəbhə bölgəsində – Əhmədbəyli kəndi ərazisində tikilərək istifadəyə verilib.

Rayonda ən vacib həyati sahələr olan təhsil, mədəniyyət, səhiyyə, gənclər və idman sferaları getdikcə təkmilləşdirilir. Ərazidəki 46 ümumtəhsil müəssisəsinin hamısı, tibb müəssisələrinin əksəriyyəti yenidən tikilib və ya əsaslı bərpa olunmuş binalarda yerləşir. 2016-cı ildə rayonun təhsillə bağlı göstəriciləri də uğurlu olub. Ali məktəblərə qəbul imtahanlarında yüksək nəticələr qazanılıb. 1100 nəfər tam orta təhsilini başa vurmuş məzunun 473-ü tələbə adını qazanıb. 21 nəfər 600–700 arası, 29 nəfəri isə 500–600 arası bal toplayıb. Məzunlardan 6 nəfəri ali hərbi məktəblərə daxil olub.

Rayonun 50 min nəfərə yaxın əhalisi respublikanın 55 şəhər və rayonunda məskunlaşıb. Füzuli Rayon İcra Hakimiyyəti müəyyən olunmuş qrafik əsasında əhalinin daha çox məskunlaşdığı Bakı, Sumqayıt şəhərlərində, Sabirabad, Saatlı, İmişli və Beyləqan rayonlarında xidmət təşkilatlarının, hüquq-mühafizə orqanlarının rəhbərləri, ərazi icra nümayəndələri ilə birlikdə görüşlər keçirir, söhbətlər aparır, vətəndaşları narahat edən məsələləri yerindəcə həll etməyə çalışır. Ərazidəki yaşayış məntəqələrində keçirilən səyyar qəbulların da böyük səmərəsi olur. İlin 9 ayında rayon icra hakimiyyəti başçısının 29 səyyar görüşü keçirilib, 941 nəfər vətəndaş qəbul edilib, qaldırılan məsələlərə qanuna müvafiq baxılıb.

Göründüyü kimi, ölkə başçısının rayonun problemlərinin həllinə müstəsna diqqət və qayğısı, dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin vaxtında gerçəkləşdirilməsi üçün rayon rəhbərliyinin bütün qüvvə və səylərini səfərbər etməsi Füzuli rayonunu yüksəliş yolu ilə irəli aparır. Bütün bunlar isə əhalinin rifahının yüksəlməsini təmin edir, adamlarda sabaha inamı gücləndirir.

***Ziyəddin SULTANOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***